*Can sözdür, əgər bilirsə insan,*
*Sözdür ki, deyirlər, özgədir can.*

***Məhəmməd Füzuli***

FİKRƏT ŞİRİYEV

# AZƏRBAYCAN DİLİNİN NİTQ MƏDƏNİYYƏTİ VƏ

# RİTORİKA

**(Ali məktəblər üçün dərs vəsaiti)**

*Azərbaycan Respublikası Təhsil nazirinin*
*30.04.2014 tarixli 521 saylı əmri ilə*
*dərs vəsaiti kimi qrif verilmişdir*

NURLAR
BAKI–2014

**Elmi redaktorlar:** *akademik* Vasim Məmmədəliyev

*professor* Sənubər Abdullayeva

**Rəyçilər:**

41 4/1
Ş 67

*Dosent* Yaşar Məmmədli

*Professor* İkram Qasımov

*Dosent* Fikrət Əlizadə

**Redaktor:**

Şəhla Tahirqızı

**FİKRƏT ŞİRİYEV**

**AZƏRBAYCAN DİLİNİN NİTQ MƏDƏNİYYƏTİ VƏ RİTORİKA**

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014, 400 s.

Kitabda Nitq mədəniyyəti fənninin nəzəri müddəaları əksini tapır, ritorika elminin 3000 illik yolu, klassik Yunan və Roma məktəbləri haqda, həm də Şərq ritorikasının ilk nümunələrindən müqayisəli parçalar, Azərbaycan nitq mədəniyyəti tarixi barədə məlumat verilir. Dərs vəsaitində həmçinin ümumritorik qanunlar, nitqin texnikası, şifahi ünsiyyət ustalığı, mübahisə qaydaları, mədəni və işgüzar nitq, nitq normaları və s. haqda nəzəri və praktik tövsiyələr əksini tapmışdır. Kitabda nitq mədəniyyətinə, söz ustalığına aid maraqlı nümunələr verilmiş, nitq terminləri lüğəti təqdim edilmişdir.

Zəngin ədəbiyyatdan istifadə edilməklə və beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanan, maraqlı nümunələr verilən bu kitab ali məktəb tələbələri üçün dəyərli dərs vəsaiti ola bilər.

ISBN: 978 - 9952 - 490 - 53 -4

© F.Şiriyev, 2014

# GİRİŞ

23 may 2012-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair" Sərəncam vermiş, 09 aprel 2013-cü il tarixində bu barədə Dövlət Proqramını imzalamışdır. Sərəncamda və Dövlət Proqramında rəsmi dövlət dilinin hərtərəfli inkişafı, tətbiqi və tədrisi geniş şəkildə tövsiyə edilmiş, istiqamətlər göstərilmişdir. Burada Azərbaycan dilində nitq mədəniyyətinə xüsusi yer ayrılmış, bu sahənin öyrənilməsi və tədrisi önə çəkilmişdir. Ayrıca olaraq "Nitq mədəniyyəti" fənninin tədrisi məsələsi ilk dəfə dövlət başçısı tərəfindən prioritet istiqamət olaraq tövsiyə edilmişdir.

Biz bütün bunları nəzərə alaraq bu dərs vəsaitini hazırlamışıq və burada nitq mədəniyyətini yalnız sinxron vəziyyətdə deyil, həm də diaxronik – tarixi baxımdan araşdırmağa çalışmış, bir çox hallarda "nitq mədəniyyəti" ifadəsi yerinə "ritorika" işlətməklə nəzərə almışıq ki, Ritorika öz tarixi və semantikası baxımından daha geniş, dolğun və əhatəlidir.

Hər bir insan öz fikirlərini dəqiq, yığcam və gözəl şəkildə ifadə etməyi bacarmalıdır. «Ritorika», yaxud «Natiqlik sənəti» və ya «bəlağət elmi» kimi fənlər məhz buna kömək etmək məqsədi güdür.

Tədris fənni kimi ritorikanın fərqi ondadır ki, digər fənlərin çoxunun mənimsənilməsi biliklərlə, ritorikanın mənimsənilməsi isə həm də bacarıqlarla bağlıdır. Həqiqətən də, əgər kimsə Nizami Gəncəvinin, yaxud Cəlil Məmmədquluzadənin nə zaman vəfat etdiyini bilmirsə, bu boşluğu iki tarixi – 1209 və 1932-ci illəri bilməklə doldura bilər. Amma əgər Siz, auditoriya qarşısında çıxış etmək üsullarına yiyələnməmişsinizsə, bu işə aid qaydaların sadəcə sadalanması kifayət etməz, burada bir sıra bacarıq və vərdişlərə yiyələnmək lazımdır və bunun üçün sizə vaxt lazım olacaq. Natiqlik qabiliyyətinə yiyələnmək, hər şeydən əvvəl, müxtəlif auditoriyalarda çıxışların uzunmüddətli təcrübəsi ilə bağlıdır.

«Ritorika nədir?» sualına ensiklopediya və lüğətlərdə təxminən belə bir cavab verilir: ritorika – natiqlik sənəti nəzəriyyəsi, gözəl danışıq nəzəriyyəsi, səlis, məhz hazırkı vəziyyətdə tələb olunduğu kimi yaxşı danışa bilmək bacarığı haqqında elmdir. Ritorika bəşər tarixindəki ən qədim elmlərdən biri olduğu üçün onun qədim dillərdə – həm yunan, həm də latın dilində özünəməxsus adı vardır: yunan dilində «ritorika», latın dilində isə «elokvensiya». Ritorikanı sadəcə "fikirdən – sözə" kimi də səciyyələndirmək olar. Hər bir insanın fikri sözlə bağlıdır; insanın heç bir fikri yoxdursa, deməli, o, lazım olan sözləri də tapa bilməyəcək. Əgər insanın söz ehtiyatı kasaddırsa, o öz fikrini parlaq və anlaşıqlı şəkildə formalaşdırmağı da bacarmayacaq.

Ritorika elmdir, çünki burada onun əsaslarına yiyələnmək istəyən hər bir insanın əməl etməli olduğu dəqiq qaydalar vardır. Lakin ritorikada həm də həqiqi incəsənətin əsas xüsusiyyəti var: heç bir qayda uğurlu nəticə əldə olunacağına təminat vermir, bunun üçün həm də yaradıcı təfəkkürün mövcudluğu zəruridir və cəmiyyət qarşısında çıxış etmək ustalığı insanın həm məntiqi, həm də ifadəli təfəkkürdən bacarıqla istifadəsindən ibarətdir.

Qədim dünyanın ritorika müəllimləri bu halları nəzərə alaraq, öz şagirdlərinə söhbətlər və gəzintilər zamanı təlim verirdilər. Bu zaman şagirdlər böyüklərdən yaşlı nəslin artıq malik olduğu qayda və üsulları öyrənirdilər.

Qədim Yunanıstan və Qədim Romada ritor- natiq, təxminən e.ə. III əsrdən başlayaraq həm də natiqlik sənəti məktəbində praktik gözəl danışıq müəllimi idi. Daha geniş mənada isə o, - peşəkarlığı ilə başqalarına natiqlik sənətini, incəsənətini, gözəl danışmaq bacarıqlarını öyrətmək imkanına malik müəllim idi.

Nəzərə almaq lazımdır ki, bu gün natiqlik sənətinin (gözəl danışıq ustalığının) əsaslarına yiyələnmiş hər bir insan:

- yeni işə düzələrkən öz tərcümeyi-halını müdirə elə danışa bilər ki, o, danışanı yubanmadan işə qəbul etmək istəyər;
- yeni kollektivə özü haqqında danışarkən özünü maraqlı və xoşagələn həmsöhbət kimi göstərə bilər;

- müdiriyyətdən təcili tapşırıq alıb, onu yerinə yetirdikdən sonra bu haqda elə hesabat verə bilər ki, rəhbərlik dərhal hesabat verənin vəzifə maaşının artırılması haqqında əmr imzalayar.

Müasir müsbət nümunələri isə fənnin bu gün də geniş tədris edildiyi xarici ölkələrin təcrübəsindən görmək mümkündür. Belə ki, Avropa və Amerikada natiqlik sənətinin ən müasir istiqamətləri klassik ritorikaya gedib çıxır və ritorika tamamilə haqlı olaraq, humanitar biliklərin ümumi metodologiyası rolunda çıxış etməyə iddialıdır.

Eyni zamanda, xaricdə natiqlik təcrübəsinin də rolu artır ki, bura tam haqlı olaraq, tədris müəssisəsindəki təcrübi və gündəlik nitqi, hətta küçədəki danışığı da aid etmək olar.

İnkişaf etmiş ölkələrdə hər bir orta məktəb şagirdi nəzəri biliklərə əsaslanan müəyyən ritorik təcrübə əldə edir. Bu, nitq ustalığına aid qısa kurs da ola bilər ki, burada şagirdlər (dinləyicilər) yalnız ictimai, açıq çıxışlara hazırlığın ümumi əsasları ilə tanış olur, işgüzar ünsiyyətin əsaslarına yiyələnməyə başlayırlar. Amma peşəkar natiq və ritorlar hazırlayan xüsusi məktəblərdə uzunmüddətli hazırlıq keçmək də mümkündür.

Peşəkar natiqlik ustalığına yiyələnməyin ümumi təcrübəsi tədricən bütün dünyada, demək olar ki, istənilən ixtisas üzrə mütəxəssis hazırlığının ayrılmaz hissəsinə çevrilməkdədir. İlk növbədə bu, müxtəlif sosial peşələrin nümayəndələrinə: diplomatlara, hüquqşünaslara, psixoloqlara, pedaqoqlara, həkimlərə, ticarət, həmçinin bütün sosial xidmət işçilərinə, kitabxana, katiblik və bələdiyyə üzvlərinə, ümumiyyətlə, insanlarla intensiv ünsiyyətdə olan digər sahələrə aiddir. Fikrimizcə, yüksək səviyyəli mütəxəssislərin hazırlanması zamanı ritorika kursunun öyrənilməsi məcburi olmalıdır.

Bu gün dünya ölkələrinin ali məktəblərinin tədris planlarına ritorika daxildir. Hazırda dünyada təkcə filoloqlar deyil, digər humanitar ixtisasların (hüquq, beynəlxalq əlaqələr, fəlsəfə, jurnalistika və s.) tələbələri də ritorik hazırlıq keçirlər.

Humanitar fakültələrdə ritorika kursunun əsas məsələləri kimi aşağıdakılar irəli sürülür:

- sosial - humanitar biliklər sistemində ritorikanın inteqral fənn kimi yerinin müəyyənləşdirilməsi, natiqlik fəaliyyətinin ictimai əhəmiyyəti və natiqin öz nitq davranışı üçün məsuliyyəti;
- tələbələrin ictimai çıxışlarda iştirak üçün səmərəli və təsirli hazırlıq texnologiyası ilə silahlandırılması;
- dinləyicilərin nitq mədəniyyətinin öyrədilənlərin peşə və şəxsi tələblərinə daha dərindən cavab verən fəal forma və janrları ilə nəzəri və əməli (həm genetik, həm də sinxron istiqamətlərdə) tanışlığı.

Ali məktəb ritorik təhsil verərkən ünsiyyət baxımından inkişaf etmiş, şüurlu və çevik şəkildə inandırmaq qabiliyyətinə yiyələnmiş, cəmiyyət qarşısında müxtəlif növ və janrlarda maraqlı çıxışlar etməyi bacaran şəxsiyyət yetişdirmək kimi sosial əhəmiyyətli ən yüksək vəzifəni yerinə yetirməyi qarşısına məqsəd qoyur.

Tədris fənni kimi ritorikanın ali məktəbdə başlıca vəzifəsi tələbənin cəmiyyətin layiqli üzvü, işinin incəliklərinə yaxşı bələd olan, şüurlu mövqeyə malik, yüksək mənəvi- ictimai normaları təbliğ edən və nitq ünsiyyətini təşkil etmək üsullarına yiyələnmiş şəxsiyyət tək yetişdirilməsi kimi sosial borcu yerinə yetirməsidir.

Ritorika (gözəl danışıq qabiliyyəti, ustalığı nəzəriyyəsi),mahiyyət etibarilə, yuxarıda qeyd edildiyi kimi, ritorik pedaqogika şəklində meydana gəlmişdir. Belə ki, bu sahədə ilk nəzəriyyəçi və praktik olan sofistlər ritorik-pedaqoji fəaliyyətlə məşğul olurdular, yəni gözəl danışıq ustalığı öyrədirdilər.

Deməli, Qədim Roma və Qədim Yunanıstanda tədris fənni kimi meydana gəlmiş ritorika bu gün də pedaqoji və praktik yönümlü olmalıdır.

Dünyanın bu sahə üzrə tanınmış bir çox alimlərinin, məsələn, S.S.Averintsevin, A.F.Losevin, L.K.Qraudinanın, A.K.Mixalskayanın və b. fikrincə, müasir ritorika nitq ünsiyyətinin yalnız texnikası yox, həm də fəlsəfəsi, onun əxlaqi seçim, xeyir və şər, onların davranış və ünsiyyətdəki problemlərini irəli sürən ümumiləşdirici etika və estetikasıdır .

Ali məktəb fənni kimi ritorika linqvistika, üslubiyyat, mətnşünaslıq, semiotika, ədəbiyyat nəzəriyyəsi və tarixi ilə bir sırada durur və aşağıdakı məsələləri əhatə edir:

- nəzəriyyənin və onun ictimai dil təcrübəsi ilə əlaqəsinin öyrənilməsi;
- janr kimi real şəkildə mövcud olan (qarşıya qoyulmuş məqsəddən asılı olaraq), müvafiq kommunikativ mətnin quruluşu haqqında biliklərə yiyələnmək;
- bu əsasda, klassik kanonun (*qanun, qayda*) çıxış etməyə hazırlıqla bağlı hər bir mərhələsində (kəşf etmə, yerləşdirmə, ifadə etmə, yadda saxlama və cəmiyyət qarşısında nitq söyləmə) bacarıqlarını təmin edən peşəkar ustalığın formalaşdırılması.

Beləliklə, «Ritorika» fənninin ən mühüm vəzifəsi tələbələrin nitq ünsiyyəti prosesinin əsas ünsürlərini dərk etmələri və istənilən nitq şəraitində effektiv nitq nümayiş etdirmələri üçün zəruri olan bacarıq və vərdişlərin formalaşdırılmasını təmin etməkdən ibarətdir.

Bu dərs vəsaitinin məqsədi – tələbələrə klassik ritorik nəzəriyyənin əsaslarını öyrətmək, onları dünya ritorika mədəniyyəti ilə tanış etmək, antik məsəl olan : «İnsanın həyatı necədirsə, nitqi də elədir» ifadəsini və Roma filosofu Senekanın: «Ziyafətlərin və geyimlərin dəbdəbəli olması dövlət idarəçiliyinin xəstəliyə tutulmasının əlaməti olduğu kimi, tez-tez təsadüf edilən nitq idarəolunmazlığı da, söz danışanların ruhunun məhv olmasının göstəricisidir.» - kimi ədalətli fikrini yadda saxlayaraq, real nitq ünsiyyətinin bilavasitə iştirakçıları olmalarına kömək etməkdir.

Bu kitab ritorika haqqında dünya praktikasında öz təsdiqini tapmış nəzəri tədqiqatlar, monoqrafiyalar, dərslik və dərs vəsaitləri əsasında tərtib olunmuşdur. Bu kitabda təcrübi fəaliyyət üçün əhəmiyyətli, lakin bir qayda olaraq, bu sahəyə aid digər nəşrlərdə kifayət qədər şərh edilməmiş üç prinsipi həyata keçirməyə təşəbbüs göstərilmişdir:

- Qısa şəkildə «müasir insanın ritorik mədəniyyəti» kimi göstərilə biləcək bu fənni mümkün qədər geniş şərh etmək;
- Şərhlərin təklif xarakteri daşıması (qanunauyğunluqlar, qaydalar, üsullar, alqoritmlər və s.);
- Şərhin mümkün qədər qısa, konkret, lakonik olması.

Ümid edirik ki, bu vəsait sizə gözəl danışmağın nəzəriyyə və ustalığına yiyələnməkdə kömək edəcək. Əminik ki, bu təkcə xüsusi qabiliyyətlərdən – vergi və istedaddan yox, həm də insanın əməksevərliyindən, məqsədyönlülüyündən asılıdır və deməli, hər bir öyrənmək istəyən üçün tamamilə əlçatandır.

# I FƏSİL

# KLASSİK VƏ MÜASİR RİTORİKA

## 1.1. Ritorikanın tarixindən

**Antik dünyada, Orta əsrlərdə, İntibah və Maarifçilik dövrlərində ritorika**

Artıq iki min beş yüz ildən bəri Avropa mədəniyyətinin inkişafına xidmət edərək, gah heyranlıq doğuran, gah heç kəs tərəfindən qəbul edilməyən ritorika elm sahəsi kimi təxminən e.ə. V əsrdə cəmiyyətin praktik tələbinə cavab olaraq meydana gəlmişdir. O zaman siyasi məsələlər xalq yığıncaqlarında, camaat qarşısında həll olunurdu. Çox böyük insan kütləsinin toplandığı yerlərdə məhkəmələr qurulur, bayramlar, yas mərasimləri, dostluq görüşləri keçirilirdi.

Qədim Yunanıstanın ritorik təlimi bizə şöhrətli, tanınmış natiqlər olan Demosfenin, Litsinin, Sokratın, Periklin (onlar hamısı ictimai xadim, yüksək təhsil almış insanlar idi) nitqlərindən nümunələr və natiqlik ustalığına yiyələnmək üçün hazırlanmış nəzəri əsərlər - Qorginin, Aristotelin, Platonun qələmindən çıxmış kitablar şəklində gəlib çatmışdır.

Natiqlik ustalığı e.ə. VI-III əsrlər qədim yunan ədəbiyyatının, həmçinin Sokratın ( 469-399), Platonun (430/427-347), Aristotelin (384-322) adları ilə bağlı olan fəlsəfənin əsasında və müsbət mənada əhatəsində inkişaf etmişdir.

Ritorika ilk zamanlardan həm incəsənət, həm də elm kimi inkişaf edirdi. Ritorikaya aid kitabların yaradılması təhsil məqsədlərinə görə zəruri idi, bu sahədə Sirakuzanın, Attikanın, Afinanın ritorika məktəbləri aparıcı rol oynayırdı. Bu məktəblərə 7 yaşlı oğlanları

qəbul edir və onlara 21 yaşınadək təlim keçirdilər. Burada fəlsəfə, məntiq, ədəbiyyat, dil, riyaziyyat öyrədilirdi. Amma aparıcı fənn ritorika idi və heç də təəccüblü deyil ki, ritorikaya aid ilk traktatlar bu məktəblərə rəhbərlik edən natiqlər tərəfindən yazılmışdı.

Adətən onların sırasında birinci filosof- sofist Qorginin (e.ə. 493-376) adı çəkilir. Onun əsərləri bizim günümüzə tam halda gəlib çatmamışdır. Müasir dövrdə Platonun «Qorgi» dialoqu bəllidir. Həmin dialoqda onun əsas elmi mövqeyi şərh olunur. Qorgi ritorikanı tədris edərkən çox səyahətlər etmiş və bu zaman Olimpiya və Delfiya bayramları üçün nitqlər də hazırlamışdır. Aşağıdakı fikir də ona məxsusdur: *söz çox böyük hökmdardır. O, çox kiçik və tamamilə gözəgörünməz bir bədənə malik olsa da, möcüzəli işlər görür. Belə ki, o həm qorxunu qova bilər, həm kədəri məhv edər, həm sevinc gətirər, həm rəhm oyadar... Sözə məxsus olan inandırma qüvvəsi həm də ruhu istədiyi kimi formalaşdırır. Biz burda İncilin ilk cümləsini – "Öncə söz olmuşdur, söz Allahın olmuşdur, söz Allah olmuşdur" xatırlatmaya bilmərik."*

Ellinlər (yunanlar) ənənəvi ritorikanı sözlə inandırma, nitq ustalığı kimi qiymətləndirirdilər. Ellin ritorlarının fikrincə, ritorikanın üç ayrılmaz əsası var: mənəviyyat, müdriklik (həqiqət) və aktyorluq bacarığı; eyni zamanda, onlar savadlılıq, mədəniyyət və natiqlik istedadına da böyük dəyər verirdilər. Düzdür, sonralar Siseron deyəcəkdi: «Şair doğulurlar, natiq olurlar» - lakin heç şübhəsiz, onun özünə də Yupiter tərəfindən böyük istedad bəxş olunmuşdu.

Köhnə, yaxud kanonik ( nümunəvi) ritorika beş hissəyə bölünürdü:

*1. İnvensiya* – tərcümədə mənası «fikrin kəşf edilməsi», yaxud nitqin məzmununun hazırlanması;

*2. Dispozisiya* (mövqe tutma), yaxud kompozisiya- rus ritorikalarında–yerləşmə (adətən nitqin janrı ilə əlaqələndirilirdi);

*3. Elokusiya* (bəlağət) və ornament – ifadə və bəzəmə; bu sonuncu və ən geniş hissə sonralar aparıcı mövqeyə yüksəldi (dil vasitələrinin, üslubun, nitq mədəniyyətinin seçilməsi, poetika);

*4. Memoria* (yaddaş üçün müxtəsər qeyd)- hazırlanmış mətnin yadda saxlanması, yaddaşın, onun yüksək hazırlığının məşqi;

5. *Aksiya,* yaxud ifa - nitqə qüsursuz yiyələnmə, şifahi ifadəlilik ustalığı, özünü idarə etmək bacarığı, jestlər və s.

Qədim ənənələrə müvafiq olaraq, ritorikanın digər elmlərlə əlaqələrini müəyyənləşdirmək mümkündür. Onu:

*məntiqlə* - nitqi mühakimələr, sübutlar, əsaslandırmalar, eyniyyət və kifayət qədər əsaslandırma qanunları;

*fəlsəfə* ilə – əxlaq, mənəviyyat problemləri, xeyir və şər, xoşbəxtlik və əzab, dünyagörüşü problemləri;

*siyasətlə* - hakimiyyət və azadlıq, mülkiyyət, ictimai münasibətlər, müharibə və sülh problemləri;

*hüquqşünaslıqla* – insan hüquqları, məhkəmə praktikası;

*filologiya ilə* – dil, onun vasitələri, üslubları, nitqin ifadəliliyi, prosodiya (hecaların tələffüz üsulu), ədəbiyyat, poetika, janrlar, teatr birləşdirir.

İnandırma, həqiqətəuyğunluq məsələsi çox qəti şəkildə qoyulurdu – ellinlər mövqelərində dönməz idilər: məlum olduğu kimi, Sokrat, Demosfen əqidələrindən dönməkdənsə, ölümü üstün tuturdular.

O dövrün ritorikasındakı filoloji məsələlər üzərində bir qədər ətraflı dayanmağa dəyər: yüksək və aşağı üslublar, bədii və işgüzar üslublar, həmçinin prosodik (tələffüz) kateqoriyalar- nitqin ritmi, intonasiyanın yüksəkliyi, səslənmə qüvvəsi, nitqin sürəti, vurğu, fasilə kimi məsələlərə xüsusi olaraq diqqət yetirilir, fiqurlar və sayı 200-ə çatan məcazlar dərindən öyrənilirdi.

İmprovizələr kifayət qədər yüksək dəyərləndirilsə də, hərtərəfli, fəal hazırlığa -söylənəcək nitqin mətninin yazılmasına, hər bir ifadənin cilalanmasına üstünlük verilirdi. Yeri gəlmişkən, əgər bunlar olmasaydı, Qədim Yunanıstan və Romanın böyük natiqləri olan – Demosfenin, Siseronun və başqalarının nitqləri bizə, sadəcə olaraq, gəlib çatmazdı.

Hərtərəfli biliyə malik olan alim, «Metafizika», «Məntiq», «Siyasət», «Poetika», «Analitika» əsərlərinin müəllifi, Böyük Platonun şagirdi olan Aristotel öz dövrü üçün çox əhəmiyyətli əsərini- üç kitabdan ibarət «Ritorika»nı yazmaqla insanın təfəkkür və mənəvi zənginliklər aləmini əhatə etmişdi.

Aristotel bəlağətli nitq elminin məqsədini xeyrə və insan xoşbəxtliyinə xidmət etməkdə görürdü. Həm də sonuncuya xüsusi diqqət yetirərək, onu «ləyaqətdən ruhlanmış firavanlıq» (ləyaqətdən qol-qanad almış rifah) kimi qiymətləndirirdi. Xoşbəxtliyin meyarları kimi isə bunları göstərirdi: insanlar arasında hörmətli olmaq, sevimli işində uğur qazanmaq, mehriban ailə, nəhayət, ən başlıcası- «yaxşı, yaxın dostu olmaq».

Aristotel natiq üçün zəruri olan keyfiyyətləri göstərir - bunlar yüksək savad, ictimai fəallıq, xalqın hörmət bəslədiyi vəzifə, dövlət xidmətləri, nitq ustalığı, qüsursuz namusluluqdur.

Əsərinin bir çox səhifələrində o, natiqlik bacarığı və biliyi olmayan və bu baxımdan çıxış edənlə eyni səviyyədə dura bilməyən insanlar qarşısında çıxışlara əvvəlcədən hazırlaşmağa natiqin mənəvi haqqının nə dərəcədə olmasından bəhs edir. Düzdür, o həmişə üstünlüyü natiqə verir.

O, dövlətin özünü qarşılıqlı nitq fəaliyyəti sistemi kimi qiymətləndirir, bu mənada ailə və dövləti eyniləşdirir. Aristotelin fikrincə, nitq qabiliyyəti insanı «digər canlılardan» fərqləndirir, nitq həm ailəni, həm də dövləti yaradır, deməli, *ritorika cəmiyyət və onun idarə edilməsi haqqında elmdir*.

Aristotelin fikrincə, ritorika bir çox məsələlərdə filolojidən çox, sosial elmdir: o, insan haqqında elmlərin bütün sahələrini ritorikada birləşdirirdi.

Əslində, gözəl danışıq qabiliyyətini Aristotel *məşvərətçi nitqlərə* (onların məqsədi nəyi isə bəyənmək, yaxud rədd etmək idi), *məhkəmə* (onlar günahlandırmaq, yaxud bəraət qazandırmaq üçün lazım idi) *və epideytik* (onların vəzifəsi tərifləmək, yaxud pisləmək idi) nitqlərə bölmüşdü. Bu hissələrin daxilində də ritorikanın digər tətbiq sahələri fərqləndirilirdi.

Aristotelin «Ritorika» əsərində iştirakçıların mənəvi aləmini zənginləşdirən, onlara sevinc bəxş edən dostcasına söhbətə də xeyli yer ayrılmışdır. Çox yaxın ünsiyyətə bu qədər diqqət yetirilməsi ritorik fəaliyyətin ənənəvi rəsmi mühitdən uzaqlaşmasını ehtiva edir. Sənədlərin, qanunların, müqavilələrin, ticarət münasibətlərinin

və s. Mətnlərin tərtibi ilə əlaqədar olan işgüzar nitq də diqqətdən kənarda qalmayıb.

Aristotel elmi ritorikanın əsas kateqoriyaları olan etos, loqos və pafos haqqında təlimin yaradıcısıdır.

***Etos*** - nitqin münasibliyi, onun bu nitqi qəbul, yaxud rədd edəcək dinləyicilərin mənəvi tələblərinə müvafiqliyidir. Bu tezisdə dinləyicilərə, müraciət olunana hörmət nəzərdə tutulur.

***Pafos*** – nitqin yaradıcısının dinləyicilər qarşısında inkişaf etdirilən niyyəti, ideyasıdır. Bu tezisdə danışanın mövqeyi, onun əqidəsi mərkəzləşir.

***Loqos*** – söz, dil vasitəsi, həmçinin məntiqdir; natiq onlardan məqsədinə çatmaq, dinləyicisini inandırmaq üçün istifadə edir.

Onun fikrincə, istənilən nitq növü ( məhkəmə, məşvərətçi, epideytik) etos, pafos və loqosun qaçılmaz vəhdətindən ibarətdir. Nitqin hər üç növü birgə, qarşılıqlı əlaqədədir.

Qeyd edək ki, Aristotel özü də parlaq nitqə malik söz ustası idi. O, «Məntiq» və «Metafizika» əsərlərində cümlə quruluşunda fikrin və nitqin o qədər incə, güclə hiss edilən çalarlarını işlətməyə nail olmuşdu ki, bunlar istənilən müasir mütəfəkkirə şöhrət gətirərdi. Onun «Ritorika – dialektikaya müvafiq olan incəsənətdir» aforizmi də təsadüfi yaranmayıb.

Gözəl danışmaq sənəti kimi ritorikanın inkişaf yolu çox da asan olmayıb. Onun fövqündə şöhrət əsirləri və unudulmuş yüzilliklər, heyranlıq mədhiyyələri və soyuq istehzalar bir-birini əvəz edib. Əvvəllər də, indi də bir çoxları belə hesab edir ki, tarixdə bu qəribə dəyişikliklər silahın gücü ilə müəyyən edilir. Toplar və mauzerlər «dillənəndə» ən yaxşı natiqlər belə susmalı olurlar. Əksinə, hər dəfə demokratiyanın çiçəklənməsi ilə birlikdə sözün inandırma gücünə diqqət yenidən oyanırdı. Lakin məsələ yalnız bunda olsaydı, ritorika elmi həmişə natiqlik sənətinin taleyini yaşamış olardı. O özünün varisliyini itirməz və inkişafın hər yeni mərhələsində, hər dəfə irəliyə doğru hərəkət edərdi. Aydındır ki, ritorikanın yüksəliş və tənəzzüllərinin başqa səbəbləri də vardır.

*Antik ritorikanın əsas nəzəri nailiyyətləri aşağıdakı müddəalarda ümumiləşdirilə bilər.*

**1.** Platon «Qorgi» və «Fedr» (e.ə. 380-370-ci illər) dialoqlarında ritorikanın *inandırma vasitəsi* kimi dərk olunmasının ənənəvi və dəyişməz mənasını müəyyənləşdirir. Burada ritorikanın meydana gəlməsi vəziyyətinin dərk olunması xüsusilə vacibdir: həmsöhbətlərin bir-birini dinləməyə razılaşması zamanı ünsiyyət qaydalarının qarşılaşdırılması yaranırdı. Digər hallarda qarşıdurma olmurdu. Bu vəziyyət ritorun nitqini filosofun nitqindən əhəmiyyətli dərəcədə fərqləndirir. Ritor qarşısındakını inandırmaqdan çox, fikrindən daşındırmaq istəyir. Xarici məqsəd onun üçün əsas yerdə durur. Ondan fərqli olaraq, aktyor özünü ifadə etməyə can atır, filosof təkcə inandırmaq yox, həm də özü inanmaq istəyir. Bu səbəbdən Platon ritorikanı həqiqət axtarmaq vasitəsi olan dialektikayla qarşılaşdırırdı. Lakin bu halda da ritorikanın əxlaqi əsasları şübhə altına düşürdü.

**2.** Aristotel özünün «Ritorika» əsərində (təxm. eramızdan 330 il əvvəl) bu ziddiyyətləri aradan qaldıraraq göstərmişdi ki, ritorika yalnız qəbul edilmiş inandırma üsullarından istifadə edir. Başqa sözlə desək, nəzərdə tutulurdu ki, ritorika özünün əxlaqi əsaslarını qoruyub saxlayır, çünki natiq auditoriya qarşısında özünün həqiqi düşüncələrini, öncəgörmələrini, müşahidə və niyyətlərini şərh edir, çünki o, yalan söyləmir və hərəkətə keçmədən, yalnız nitq vasitəsilə inandırır; auditoriya isə onun nitqi ilə tanış olduqdan sonra öz seçiminə uyğun hərəkət etməkdə azaddır.

Ritorikanın əxlaqla birləşdirilməsi davamlı əhəmiyyətə malik idi. Bu anlayış Romada hakim idi və Siseronun nüfuzu ilə daha da möhkəmlənmişdi. O, özünün «Natiq haqqında» traktatında ( e.ə. 55-ci il) deyirdi ki, bəlağətli nitq insanın mənəvi qüvvəsinin ən yüksək təzahürlərindəndir.

**3.** Təkcə məntiqi dəlil və sübutlardan yox, həm də psixoloji proseslərdən, mənəvi qüvvələrin, məsələn, qorxu, qəzəb, rəhm və s. oyanmasından bəhs edən, inandırma mənbələrinin və üsullarının belə təhlili ilk dəfə Aristotel tərəfindən «Ritorika» əsərində, qismən «Poetika»nın bəzi fəsillərində və «Orqanon» toplusunda verilmişdir. Bu təhlilin fundamental əhəmiyyəti belədir: ritorikanı məntiq və psixologiyaya yaxınlaşdırmaqla biz həm də inandırma prosesini

bu elmlərin heç biri ilə, o cümlədən etika ilə eyniləşdirmirik, lakin insanın bütün psixi fəaliyyət sahələrini vahid məqsəd baxımından əhatə etməyə can atırıq.

**4.** *Təsir göstərmənin estetik formalarının* xüsusi rolu ilk dəfə çox aydın şəkildə Siseron tərəfindən vurğulanmışdır. Yalnız bir sitatla kifayətlənək: *"İnsanlar kimin qarşısında həyəcanlanırlar? Kim danışarkən ona sarsılmış şəkildə baxırlar? Kimə heyran olurlar? Kimi az qala insanlar arasında Allah hesab edirlər? Kim ki cəlbedici sözlərlə, rəngarəng obrazlarla diqqəti cəlb edərək sərrast danışır... sonra nəsrin özünə nəsə bir şeir parçası daxil edir – bir sözlə, gözəl danışır."*

Ümumiyyətlə, göstərdiyimiz nümunədən göründüyü kimi, estetik təsir burada nitqin məzmunundan çox, onun xarici forması ilə əlaqələndirilir.

**5.** Antik ritorika inandırma prosesinin məqsəd istiqamətinin, əxlaqi-etik, məntiqi, psixoloji və estetik təbiətinin dərk edilməsi üçün əsaslar yaratsa da, onunla məqsədin həyata keçirilməsinə kömək edən xüsusi vasitə, yəni dil arasındakı qanunauyğun əlaqəni aşkara çıxara bilməmişdi. Lakin bu istiqamətdə də müəyyən uğurlar əldə edilmişdi.

**6.** Özünün, təəssüf ki, bizə gəlib çatmamış «Üslub haqqında» əsərində Teofrast nitqin keyfiyyətləri haqqında təlimi formalaşdırmışdır. Sonralar bu təlim Aristotel, Siseron və Kvintilian tərəfindən inkişaf etdirilmişdir. Bu təlimin əhəmiyyəti *düzgünlük* kimi adi bir xassənin ritorik nitqin xüsusiyyətlərini müəyyənləşdirən bütün digərlərinə qarşı qoyulmasıdır. İkinci mühüm məsələ – ritorikanı digər linqvistik fənlərdən ayırmaq və onun qrammatika ilə eyniləşdirilməsindən qaçmaqdır.

**7.** İlk «ritorlar» daha çox incəsənət aləminin nümayəndələri – aktyorlar, müğənnilər, rəqqaslar idi. Əvvəllər söz əsas rol oynamırdı, musiqi, hərəkətlər, jestlər daha əhəmiyyətli sayılırdı. Xarakterikdir ki, ritorikanın öyrəndiyi yunan sözü və onun latın analoqu «fiqura» - «nitqin əsas bəzəkləri» ilkin mənada rəqslərdə müəyyən hərəkətlər, bir növ, rəqs «pa»ları mənasını bildirirdi. Adi, sadə, təbii nitq donmuş, hissləri gizlədilmiş, yaxud heç bir hissi olma-

yan, daşlaşmış bədən və üzlə müqayisə edilirdi. Əksinə, hərəkətlər, yaxud jestlər öz hisslərini ifadə edə bilmək və danışmaq bacarığı ilə əlaqələndirilirdi.

Ritorika elm olmaq üçün özünün xüsusi vasitələrini tapmalı idi. Bu baxımdan ən mühümü o idi ki, Aristotel «sxem» terminini sadəcə ritorika ilə deyil, hətta qrammatika ilə əlaqələndirmişdir.

**8.** Antik ritorikada fikir fiquru və söz fiquru bölgülərinin təqdim edilməsi böyük əhəmiyyətə malik idi, bunun ardınca Kvintilianın «Ritorik nəsihətlərin on iki kitabı» adlı fundamental əsərinin 8 və 9-cu kitablarında dəqiq, demək olar ki, tam təsnifat verilmişdi.

**9.** Antik ritorika fikir fiquru anlayışını kifayət qədər aydın müəyyənləşdirməyi, onun sərhədlərini cızmağı, xüsusi struktur-semantik təşkil edilmə ilə səciyyələnməyən təsvir üsullarından ayrılmağı bacarmamışdı. Lakin qarşıya başqa– fiqur və tropların (məcazların) fərqləndirilməsi kimi mühüm məsələ qoyulmuş və bu məsələnin həlli yolları müəyyənləşdirilmişdi. Siseron bu fərqləri məcazi- söz və fiquru söz birləşməsi kimi qarşılaşdırmaqda görür, Kvintilian isə belə hesab edirdi ki, adi nitq parçasını məcazla əvəz etmək ona yeni məna verir, fiqurla əvəz etmək isə - yox. Lakin bu müəlliflər də məcazların tam təsnifatını verməmişlər. Belə təsnifatı ilk dəfə məcazların 37 variantını və 14 əsas çoxnövlüyünü sadalayan Trifonda görürük.

Qeyd etmək lazımdır ki, ritorika XV əsrədək əsasən sxolastik, XVI əsrdən humanist, XVII əsrdə isə reformist olmuşdur.

Bunları *sxolastik dövrün* əlamətləri hesab etmək mümkündür: üslub qanun səviyyəsinə yüksəlir- burada həm geyim tərzi, həm nitq etiketi var; təlimin əsasında yüksək, orta və aşağı üslublar durur. Ritorik qaydaların bu mərhələsinin təsiri XVIII əsrin ünsiyyət təcrübəsində aydın şəkildə əks olunur.

*Humanist ritorika* İntibah dövrü ilə bağlıdır. Saray akademiyası onun mərkəzi olur, Kral III Henrix üçün Fransız ritorikası tərtib olunur, kral nitq mədəniyyəti (fransız dilində) tətbiq olunmağa başlayır. Ritorika qrammatika və dilin ədəbi normalarının, ümumiyyətlə, bu gün nitq mədəniyyəti adlandırdığımız bütün məsələlərin işlənməsinə təkan verir. «Nitqin səhnələşdirilməsi»

tətbiq olunur, intonasiyaya, tələffüzə, nitqin aydınlığına diqqət artır. Ədəbiyyat nümunələrindən istifadə olunur, tərcümə ustalığı inkişaf edir.

*Reformist ritorika* humanitar elmin daha əhəmiyyətli sahəsinə çevrilir. Onun təsiri ilə hamı tərəfindən geniş istifadə olunan kitablar, məsələn, Şabanelin «Fransız nitq mədəniyyətinin mənbələri», «Yüksək səviyyəli xanımın təlimi üçün gözəl danışıq» nəşr olunur.

Avropa ənənələri barədə danışarkən Qoca Şərqin böyük natiqlik ənənələri barədə heç nə deməmək günah olar.Şərq fəlsəfəsində dil və söz xüsusi çəkiyə malik olmuş, Füzulinin təbirincə desək, söz ölkələri, sarayları fəth edən fatehlərdən daha qüdrətli sərkərdə olmuşdur.Qeyd etmək lazımdır ki, hələ eramızdan əvvəl I əsrdə- yəni təxminən Yunan-Roma sivilizasiyası dövründə qələmə alınmış Hind ədəbi nümunəsi olan **"Kəlilə və Dimnə"** əsərində söz haqqında yazılır:

*Atalar deyiblər ki, dilini saxla, başın salamat olar, yersiz danışmağın nəticəsi peşmançılıqdır. Nəql edirlər ki, bir padşah məsləhət üçün yanına dörd alim çağırıb deyir: " Həraniz elə bir hikmətli söz deyin ki, o, gözəl bir tərbiyənin əsası olsun". Birinci deyir: - Ağıllı adamların həyatında ən layiqli cəhəti danışmamaqdır! İkinci deyir: - Dünyada ən faydalı şey odur ki, insan öz əqli ilə məsləhətləşməmiş sözə başlamasın. Üçüncü deyir: - İnsan üçün ən xeyirli iş odur ki, fikirləşməmiş dinməsin. Dördüncü deyir: - İnsan üçün ən rahatı odur ki, özünü taleyin ixtiyarına versin.*

*Deyirlər, bir gün Çin, Hind, İran və Rum padşahları bir yerə toplaşıb şərt qoyurlar: onlardan hər biri elə bir söz desin ki, dünya durduqca dursun. Çin şahı deyir: - Mən demədiyim sözü geri qaytarmağa, dediyim sözü geri qaytarmaqdan daha artıq qadirəm. Hind şahı deyir: - Mən o adama təəccüb edirəm ki, dediyi söz özünün xeyrinə olduqda ona fayda verməsin, zərərinə olduqda onu məhv etsin. İran şahı deyir: - Sözü nə qədər ki deməmişəm, o mənim qulumdur, elə ki dedim, oldu, ağam. Rum şahı deyir: - Mən demədiyim sözdən heç vaxt peşman olmamışam, dediyimdən isə çox tez-tez peşmançılıq çəkmişəm.*

*İnsanların susması fayda verməyən boş söhbətlərdən daha yaxşıdır. İnsan hər şeydən çox dilindən bəlaya düşür.*

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

Maraqlıdır ki, Şərqdə Qərbdə olduğu kimi ritorika sahəsində qəliblənmiş, strateji tədqiqatlar aparılmasa da, yazılan kitablarda nitq mədəniyyətinin bütün vacib nəzəri çalarları öz əksini tapmışdır. Misal üçün Fars ədəbiyyatının böyük nümunələrindən biri olan və 1082-ci ildə Ziyarilər xanədanının son hökmdarı Qabus ibn Vəşmgir tərəfindən yazılmış *"Qabusnamə"* əsərində söz haqqında yazılanları göstərmək olar:

*Ey oğul, insan söz anlamağı və söz deməyi bacarmalı, pis adamlardan isə dilini saxlamalıdır. Ey oğul, sən doğru danışan ol, özünü doğru danışan tanıt ki, işdir, bir gün zərurət üzündən yalan deməli olsan, doğru qəbul etsinlər. Lakin yalana oxşar doğru danışma. Doğruya oxşar yalan, yalana oxşar doğrudan yaxşıdır, çünki o yalana inanarlar, bu doğruya yox. Qəbul edilməyən doğrulardan qaç.*

*Onu da bilməlisən ki, söz dörd cürdür: birini nə bilərlər, nə deyərlər, birini həm bilərlər, həm də deyərlər, birini deyərlər, lakin bilməzlər, birini bilərlər, lakin deməzlər. Bilinməyən və deyilməyən sözlər dinə ziyanı olanlardır; bilmək lazım olmayıb deyiləsi sözlər: Haqq-təalanın kitabında, peyğəmbərin hədislərində, elmi kitablarda, üləmanın əsərlərində olan sözlərdir, çünki belə sözlərin şərhi yalnız təqliddən ibarət olar, onlardakı ziddiyyət, ixtilaf və çətinlikləri açıb göstərmək vəhydən xəbər vermək və ona bənzər bir şeydir. Həm bilməli, həm deməli sözlərə gəldikdə, onlar həm dinə, həm dünyaya lazım olan, yəni hər iki dünyada işə yarayan sözlərdir. Belə sözlərin həm danışana, həm də dinləyənə faydası olar. Bilib deyilməyəsi sözə misal onu göstərmək olar ki, böyük bir adamın və ya bir dostun sənin yanında bir eybi ola, ya ehtimal üzündən və ya işin gedişindən elə güman edəsən ki, o, şəriətə düz gəlmir, desən ya həmin böyük adamın qəzəbinə səbəb olarsan, ya o dostuna ziyan vurarsan, ya qara camaatın tənəsinə məruz qalarsan. Belə bir söz, bilib deyiləsi mümkün olmayan sözdür. Dediyim bu dörd növ sözün ən yaxşısı odur ki, onu həm bilmək olar, həm də demək. Lakin bu dörd növ sözün hərəsinin iki üzü vardır: biri gözəl, biri çirkin. Camaat arasında danışarkən gözəllərini danış ki, xalqın xoşuna gəlsin və qabiliyyətinin dərəcəsi məlum olsun. Böyük*